

Bakıda sağalmaz xəstəliyə düçar olan kişi ondan yaxa qurtarmağın yolunu ölümdə tapıb. Binəqədi rayonunda 55 yaşlı kişi öz ağrılarına güllə ilə son qoyub.

Natiq Xudiyev yaşadığı evdə dünən özünü güllələyib. Binəqədi Rayon Prokurorluğundan Milli.Az-a verilən məlumata görə, N.Xudiyev xərçəng xəstəliyindən əziyyət çəkirmiş. Ağrılara dözə bilməyən kişi odlu silahı başına sıxıb və atəş açıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə iş başlanılıb.

Xəbər 485 dəfə ox